# JURNALİSTİKANIN VETERANI

*Masa arxasında çoxları əlinə qələm alıb ağ vərəqlərə nəsə yazmaq istəyirlər. Bəzisində alınır, digərində bəlkə də yox. Lakin istedad və zəhmət yaradıcı insanların yol yoldaşıdır. Necə deyərlər istedadın, hünərin varsa, buyur hopdur vərəqlərə fikir və duyğularını.*

*Azad Zülaloğlu imzasına Lənkəranda yaxşı bələddirlər. O, qələmə aldığı mövzunu dönə-dönə fikir süzgəcindən keçirərək vərəqlərə hopdurur. Çoxları da bilmir ki, ona verilən ad necə meydana gəlib. Jurnalistin dediyinə görə, bu adı ona valideynləri 9 may Qələbə günü münasibətilə veriblər. Azad! Bu adla o, böyüdü, yaşayır və mənəvi dünyada öz sözünü deyir. Hazırda ömrünün 75-ci pilləsindədir. 15 fevral 1945-ci il təvəllüdlü olan Azad Zülaloğlu Ağayevin indiyədək yüzlərlə, minlərlə məqalələri, zarisovkaları, oçerkləri, şeirləri, lətifələri müxtəlif mətbu orqanlarında işıq üzü görübdür. Bu gün də onun qələmindən bəmbəyaz vərəqlərə söz ləlindən inci düzülür. Onun söz "xəmiri" sevgidən yoğrulub.*

*Dahi Nizami Gəncəvi demişkən:*

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?!*

*Bəli, yaradıcı insanlar İlahi eşqin fövqündə yazıb-yaradırlar. Uca Tanrının istədiyi bəndəsinə verdiyi fitri istedad cəmiyyətə, bəşəriyyətə əvəzsiz xidmət göstərir. Bu yöndə Azad müəllim öz imzasına hörmətlə yanaşır. Çalışır ki, qələmə aldığı obyekt əhatəli və dolğun olsun. Bu da əsl yaradıcı insanlara xas olan keyfiyyətlərdəndir.*



*A.Zülaloğlu indiyədək çoxlu titulların sahibir. O, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" və Həsən bəy Zərdabi mükafatlarının laureatıdır. "Gülürəm, güldürürəm" lətifələr kitabının müəllifidir. Bir neçə dəfə Azərbaycan Televiziya və Radio Şirkəti tərəfindən fəxri fərman, diplom və pul mükafatlarına layiq görülüb. Eyni zamanda "Kirpi" jurnalının 55 illiyi münasibətilə keçirilən yazı müsabiqəsində satirik yazılarına görə jurnalın redaksiyası tərəfindən mükafatlandırılıb. Eləcə də hər il 6 noyabr və 22 iyul Milli Mətbuat Günü münasibətilə diplom və pul mükafatları almışdır.*

*Azad müəllim hər il beynəlxalq gülüş günü münasibətilə ARB Cənub telekanalına dəvət olunur.*

*A.Zülaloğlunun titulları yaradıcı və yaşlı nəslin nümayəndələrinə də yaxşı tanışdır. Mən bu yazımda sadəcə Azad Zülaloğlunun doğum günü münasibətilə ürəkdən gələn duyğularımı qələmə alıram.*

*A.Zülaloğlunun imzası hər dəfə qəzet və jurnallarda işıq üzü görəndə qəlbi fərəhlə döyülür və yeni yaradıcılıq axtarışlarına çıxır. Çünki o, qəlbən söz sənətinə bağlı insandır. Lənkəran radio verilişləri redaksiyasında çalışdığı illərdən bəri həmişə mənəviyyatı, mənəvi insanları dəstəkləyib.*

*Azad müəllim söhbət zamanı vurğuladı ki, indi imkanlı şəxslər çoxdur. Qoy azad Azərbaycanımız daha da tərəqqi etsin. İstərəm ki, insanlarda mənəviyyat yüksək olsun. Maddiyyatla mənəviyyat vəhdət təşkil edəndə daha möhtəşəm və gözəl olur.*

*Azad müəllim, 75 yaşın, yubileyin mübarək olsun! Hər zaman qələmindən ağ vərəqlərə söz adlı inci, sədəf düzülsün!*

*Sehran YƏDULLAOĞLU,*
*Lənkəran*

Ədalət.- 2020.- 18 fevral. S. 8.